

# ŞAİRİN DÜNYA SEVİNCİ

Hikmət Mahmud... Şair, alim, mütəfəkkir, söz-sənət adamı... müdrik el ağsaqqalı. Onun həyatının, yaradıcılığının hər bir mərhələsi ayrıca söz olası mənbədir.

İnsanı hardan, necə tədqiq etmək olar? Birinci növbədə onun kimliyini yada salmalısan. Hardan, hansı kökdən, hansı diyardan, hansı zamandan gəldiyini mütləq bilməlisən. Ancaq bundan sonra onun kimliyi haqqında nəsə demək imkanın olar. Yoxsa, bilmədiyin nəsnə haqqında nəsə demək, sənin üçün qaranlıq olan aləmə baş vurmaq, görmədiyin, bilmədiyin haqqında nəsə demək kimi bir şeydir.

Hikmət Mahmud şairdir və əzəli olaraq şairdir. Geologiya elminə gələndə də şair idi, Azərbaycan mənəvi mühitində ictimai xadim kimi tanınanda da, hətta görkəmli pedaqoq olanda da şair idi.

Əgər belə olmasaydı...

Bəli, əgər belə olmasaydı, onda Hikmət Mahmud yaşının indiki çağında bu qədər qaynarlıqla, bu qədər odlu nəfəslə yazıb-yarada bilməzdi.

Hikmət Mahmudun dünya işığına gəldiyi gündən indiki zamanacan keçən yol - onun yaşam yolu sadəcə bir ömür yaşayan insanın yolu deyil, hərçənd ki, Hikmət Mahmud bütün ömrü boyu cəmiyyətin, insanların mühitindən kənarda olmayıb. Ən yaxşısı onun dəqiq tərcümeyi-halından müvafiq fakta diqqət etməkdir: “Hikmət İsmayıl oğlu Mahmudov 1936-cı il may ayının 15-də İsmayıllı rayonunun Mican kəndində müəllim ailəsində anadan olmuşdu”. Bəlkə də, Hikmət Mahmudun mənəvi dünyasının saflığında, sağlamlığında axtaracağımız həqiqətlərin kökü elə bu faktlarla bağlıdır.

Hikmət Mahmud şair oldu. Çoxlu poetik əsərlərin müəllifi kimi tanındı, bir çox dünya dillərinə tərcümə olundu; rus, ukrain, belarus... bir çox Avropa dillərində onu oxudular. Elmi əsərləri dünya alimlərinin yığıncaqlarında müzakirə mövzusu oldu...

Ancaq Hikmət Mahmud özünü azərbaycanlı olmaqdan kənarda təsəvvür eləmədi. Hər vaxt həyatının ən gözəl anları kimi İsmayıllı rayonunun Mican kəndini uşaqlıq xatirələrinin yuvası kimi yada saldı. Böyüyüb boya-başa çatdığı Azərbaycan dünyası ilə fəxr elədi.

Hikmət Mahmud təkcə elmi ilə şöhrətlənmədi, sözü ilə, bədii sözü ilə də, hikmətilə də şöhrətləndi. Onun həyatının ən müxtəlif dönəmləri sənət mühiti ilə əlamətdar oldu. Məclislərdə, ədəbi tədbirlərdə, elmi yığıncaqlarda sözü ötən, sözü dinlənilən, sözünə dəyər verilən obraza çevrildi.

Bu gün Hikmət Mahmud dövlətimizin xüsusi qayğısı ilə əhatə olunub. Prezidentin fərdi təqaüdünə layiq görülüb. Ən başlıcası, onun poetik enerjisi, yaradıcılıq gücü yenə öz axarındadır.

Bizim “Kredo” qəzeti Hikmət Mahmudun poetik nəfəsi ilə, demək olar ki, hər sayında süslənir. Hikmət Mahmud xoşbəxt sənətkardır; xalqı tərəfindən sevilir, qürur mənbəyi kimi söykəndiyi dövləti tərəfindən ona dəyər verilir...

Ən başlıcası, ən böyük istəyinə qovuşub: Azərbaycan torpaqlarının işğaldan azad olunmağının şahidi olub.

Bəlkə də, Hikmət Mahmudu indiki yaşında bu qədər ilhamla yazıb-yaratmağa çağıran hiss ilham aldığı bu nikbin qaynaqlardır, yaşamağa çağıran qaynaqlardır.

Şairin dünya sevinci, şairin dünya sevgisi elə budur.

*Əli Rza XƏLƏFLİ*
*15.12.2020*

Kredo 2020.- 10 dekabr.- S.1.